# TƏBİƏTİ SEVƏ-SEVƏ

## *Yusif Dirilinin "Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlər" monoqrafiyasına rəy - düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Ətraf mühitə dağıdıcı təsir göstərən amillər çoxdur; indiki dövrümüzdə təbiətə ən güclü, ən dağıdıcı zərbələr müharibələr vasitəsilə dəyir. Elə Azərbaycanın 30 ilə qədər işğal altında olan ərazilərində nələrin baş verdiyini 44 günlük qələbə savaşından sonra öz gözlərimizlə daha yaxından görə bildik. Erməni vandalları sözün həqiqi mənasında təbiətə qəddarcasına münasibət bəsləyib. Meşələr yandırılıb, abidə ağaclar kəsilib, doğranıb, yanacaq kimi istifadə olunub. Təkrar-təkrar yandırılan ərazilərdə ən nadir bitki örtüyünün faciəsi daha ürək ağrıdıcı mənzərəyə çevrilib, bəlkə də nə qədər nadir bitkilərin kökü kəsilib.

Dünyanın müxtəlif yerlərində partlayışlar törədilir. Ayrı-ayrı ərazilərə dağıdıcı raket zərbələri endirilir. Bu zərbələr insanlar üçün ölümcül olduğu kimi elə təbiətə də məhvedici təsir göstərir.

Əsas odur ki, ətraf mühitə dəyən zərbənin ümumi evimiz olan Yer kürəsinin sinəsində necə yaralar açdığını təsəvvür edək. Bunu bütün bəşər nəsli qavramalı və təbiətə vəhşi münasibətin qarşısı alınmalıdır.

Əlbəttə, ekoloji problemləri həll etmək üçün müəyyən proqramlar həyata keçirilir. Beynəlxalq təşkilatların vasitəsi ilə təbiəti mühafizə tədbirləri ardıcıl olaraq davam etdirilir. Yeri gəlmişkən, qeyd edək ki, ədəbiyyat və incəsənət sahəsində çalışanlar da təbiəti qorumaq uğrunda mübarizədən kənarda qalmır. Rəssamlar ecazkar təbiət təsvirləri ilə insanların təkcə zövqünə xidmət etmirlər, həm də təbiəti sevməyi öyrədirlər. Nadir təbiət mənzərələri, heyvanlar aləmi, Yer kürəsinin bitki örtüyü haqqında çəkilmiş bədii-sənədli filmlər təbiətin müqəddəsliyini, elə insanı yaşatmaq naminə onu qorumağın vacibliyini təlqin edir. Şübhəsiz, ədəbiyyat da kənarda qalmır. Yazıçılar, şairlər, xüsusilə, publisistlər təbiəti qorumaq uğrunda mübarizədə sözdən ən kəsərli vasitə kimi istifadə edirlər.

Əli Rza Xələfli müasir ədəbiyyatımızın görkəmli nümayəndələrindən biridir. Onun bədii yaradıcılığı və publisistikası insan təbiətinin dərinliklərinə nüfuz edə bilir. Ayrı-ayrı əsərlərində təbiət-insan münasibətləri daha qabarıq təsvir olunur. Bir sözlə, yaxından tanıdığım üçün deyirəm ki, Əli Rza Xələfli nə qədər ədalətli cəmiyyət, kamil insan uğrunda mübarizə aparırsa, bir o qədər də təbiəti qorumaq uğrunda mübarizə aparır. O, yazılarında belə bir fikri təlqin edir ki, "biz təbiətimizi gələcək nəsillərə daha sağlam, daha mükəmməl formada qoymalıyıq. Çünki gələcək nəsillərin cismani və mənəvi həyatı təbiətin saflığından çox asılıdır".

Son dövrlərdə bədii yaradıcılıqda ekologiya məsələlərinə xüsusi diqqət yetirilir. Bu sahə üzrə yeni alimlər nəsli formalaşmaqdadır. Ətraf mühit üzrə tədqiqatçılar sırasında Mirəli Axundovun, Qara Mustafayevin, digər təbiətşünas alimlərin adlarını çəkə bilərik. Onların yetirmələri olan yeni nəsil alimlər də təbiətin mühafizəsi uğrunda mübarizəni əzmkarlıqla davam etdirməkdədirlər. Anar Məmmədovun, Yusif Dirilinin adlarını çəkmək, zənnimcə, çox ədalətli olardı.

Yusif Dirili ekologiya tarixi üzrə mütəxəssis kimi formalaşıb. O, ətraf mühitin ən fəal tədqiqatçılarından biridir. Son vaxtlar onun mətbuatda və sosial şəbəkələrdə ayrı-ayrı sənətkarların yaradıcılığında təbiət məsələləri ilə bağlı tədqiqatları diqqəti cəlb edir. İndi onun qarşımızda olan bir kitabının nəşrə hazırlanmasının şahidiyik. Bu kitab "Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlər" adlanır. Təsadüfi deyil ki, elə bu kitabın redaktoru da ekologiya üzrə görkəmli tədqiqatçı-alim, şair-publisist Anar Məmmədovdur. Hər birimizə yaxşı məlumdur ki, bədii yaradıcılıqda ekologiya məsələlərini öyrənmək təbiətimiz və mənəvi mühitimiz üçün çox vacib olsa da, bir növ diqqətdən kənarda qalıb. Ətraf mühit üzrə tədqiqatçı alim Yusif Dirili məlum mövzunu Əli Rza Xələflinin yaradıcılığı əsasında tədqiq edib və çox dəyərli bir işi - monoqrafiyanı ərsəyə gətirib.

Müəllif əvvəlcə ümumi ekoloji problemləri monoqrafiyanın girişində qabardır. Tədqiq edəcəyi mövzunun aktuallığını əsaslandıraraq yazır: *"İnsanların ətraf mühitə bağlılığı bilavasitə onun təbiətə münasibəti ilə əlaqəli şəkildə inkişaf etmiş və bu günə qədər gəlib çatmışdır. Başqa sözlə, İnsan meydana gəldiyi ilk gündən təbiətlə sıx təmasda olmuşdur. Təbiət onun həm evinə (sığınacaqlar; mağaralar, meşələr, daş oyuqlar, kahalar, küfüllər və s.), həm güzəran mənbəyinə (qida vasitələri - ovçuluq, balıqçılıq, əkinçilik), həm də istirahət (səfalı yerlərə gəzintilər) məkanına çevrilmişdir. Bir sözlə, insan yarandığı gündən təbiətə antropogen təsir etmişdir. Ona görə də ilk insan təbiəti daha yaxşı öyrənməyə və yaxından tanımağa cəhd etmişdir. Təəssüf ki, o vaxtkı insanlar özləri tədricən ətraf mühitə qarşı aqressiv münasibət yolunu seçmişlər: Belə ki, təbiətdən sığınacaq, qida və geyim kimi istifadə edən ən qədim insanlar təbiətə təsir göstərməyə başlamışlar. Yaşayış səviyyəsinin getdikcə çətinləşməsi səbəbindən təbiətlə insan arasındakı "səmimi" münasibətlər sistemi də dəyişmiş, bağlar qırılmağa başlamışdır. Təbiətdən asılılıq azaldıqca o vaxtkı insanlar dağıdıcı qüvvəyə çevrilmişlər. Həyat şəraitini daim yaxşılaşdırmaq arzusu onları təbiətə qarşı daha da aqressiv olmağa vadar etmişdir. İnsan-təbiət vəhdətini tənəzzülə aparan yol çoxşaxəli ekoloji problemlər yol açmışdır. İndi gec də olsa bu durumdan çıxmağın yollarını aramalıyıq. Birinci növbədə ətraf mühitə münasibət kökündən dəyişillməli, təbiətin əzəlki halının bərpası üzərində düşünməliyik. Hansı vasitələrlə? İlk növbədə təbiətə, iki insanın bir-birinə xoş münasibəti timsalında yanaşmalıyıq. Təbiətə ilahi yaradılış, müqəddəs simvol kimi baxmalıyıq. Bu, onun etibarlı qorunmasının əsas göstəricilərindən biri ola bilər".* Göründüyü kimi müəllif təbiətə vurulan zərbələri daha çox antropogen amillərlə bağlayır. İnsan özünün həyat şəraitini yaxşılaşdırmaq üçün təbiətə qəddar münasibət göstərir. Bir növ özünü təminat naminə təbiəti qəddarcasına talayır. Və ona necə məhvedici zərbələr vurduğu haqqında heç düşünmür də. Deməli, bu gün insanlığın qarşısında təbiəti hifz etmək, onu qorumaq çox ciddi bir məsələ kimi durur. Məlumdur ki, ədəbiyyat da insanların mənəvi mühitinə kifayət qədər təsir etmək gücündə olduğu üçün Yusif Dirili əslində təbiəti hifz etmək naminə ədəbiyyatdan yararlanmağı vacib hesab edir, buna görə də ətraf mühitin mühafizəsindən bəhs edərkən ədəbiyyata üz tutur.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP-29) 29-cu sessiyasının məkan baxımından bizim ölkəmizdə keçirilməsi də bir çox mətləblərə aydınlıq gətirir. Axı, Azərbaycanın erməni işğalı nəticəsində təbiətinə ciddi ziyan vurulub. Sözün həqiqi mənasında, dağıdıcı təsirlərin miqyası o qədər böyükdür ki, az vaxt içərisində bunları həll edib bərpa işlərini tezliklə başa çatdırmaq mümkün deyil.

Yusif Dirili bu əsəri ilə bir növ ədəbiyyat xadimlərini də ümumi mübarizəyə qoşulmağa çağırır. O, tədqiqatının "giriş" hissəsində yazır: *"Bədii ədəbiyyatın, o cümlədən, publisistikanın vəzifəsi təbiətdə baş verən anormal situasiyaları olduğu kimi cəmiyyətə çatdırmaq, əhalini neqativ hallara qarşı mübarizəyə səfərbər etməkdir. Paralel olaraq təbiətin tanıdılması istiqamətində ekoloji maarifçilik xidməti səngiməməlidir. Uşaqlar və gənclər, elə böyüklər də nə qədər çox ekoloji biliyə, dünyagörüşünə yiyələnsələr, ətraf mühitə bir o qədər pozitiv yöndə köklənəcəklər. Bu, onların ekoloji tərbiyəsinə güclü təsir göstərəcək, onlarda ekoloji şüurun və mədəniyyətin formalaşmasına təkan verəcəkdir. Bir sözlə, arzu edilən istiqamətdə düzgün aparılmış maarifçilik işləri gec-tez bəhrəsini verir. Bədii ədəbiyyat bu cəhətdən çox iş görə bilər. Fərqi yoxdur, ayrıca götürülmüş bütöv bir əsəri təbiətə həsr edəsən, yaxud fraqmentlər şəklində münasibətini bildirəsən. Hər bir halda təbliğat məqsədyönlü və qaydasında aparılmalıdır. Yalnız belə olduğu halda onun fayda verə biləcəyindən danışmaq olar".* Bundan sonra müəllif Azərbaycanın görkəmli söz-sənət adamlarını xatırladır. Onların təbiətlə ünsiyyətini təbliğ edən dəyərli əsərlərini yada salır. Xüsusilə, şairlərdən Səməd Vurğunun, Musa Yaqubun, Hüseyn Arifin, Məmməd Arazın və başqalarının təbiət şeirlərinin ən gözəl nümunələrini yaratdıqlarını qeyd edir. Nəhayət, bu sırada Əli Rza Xələflinin də adını çəkir.

Mən Xələflinin çoxlu kitablarını nəşr etmişəm. "Bu dünyanın Mehmanısan", "Bir bayatı çağırdım", "Türkiyənin zəlzələ ağrıları", "Şərhin poetik notları" kimi dəyərli poetik və publisistik əsərlərində onun çox güclü təbiət təsvirləri var. Vaqif Yusifli təsadüfi olaraq qeyd etmir ki, o, təbiət təsvirlərində Məmməd Arazla, Musa Yaqubla, Məmməd Aslanla bir "cərgədə dayanır". Yeri gəlmişkən, xatırladım ki, Xələflinin torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrə aid olan yaradıcılığında, xüsusilə "Göyən əfsanəsi", "Yaddaş yanğısı" poemalarında dəhşətli ekoloji problemlərin təsvirini görürük.

Monoqrafiyanın "Giriş"ində Xələflinin çox dəyərli yaradıcılığını yüksək qiymətləndirən görkəmli alimlərin qənaətləri də mətnə daxil edilib. Biz burada professor İsmayıl Kazımovun, professor Yadulla Ağazadənin, akademiklər Teymur Bünyadovun, Rafael Hüseynovun və başqalarının Xələfli yaradıcılığına yüksək dəyər vermələrinin şahidi oluruq. Təqdim olunan mətnlər məlum mövzuda bədii həqiqətin təsdiqidir.

Əli Rza Xələflinin çox zəngin bayatı yaradıcılığı var. Ayrı-ayrı əsərlərində yeri gəldikcə, bayatılar silsiləsi oxuculara təqdim olunub. Amma onun ayrıca bir bayatılardan ibarət "Bir bayatı çağırdım" adlı kitabı da çap olunub. Yusif Dirili Əli Rza Xələflinin bayatı yaradıcılığında təbiət-insan münasibətlərinə xüsusi diqqət yetirir və monoqrafiyanın birinci fəsli elə bu mövzuya həsr olunub. Düşünürəm ki, monoqrafiyanın bu hissəsindəki giriş mətninin müəllifin qəlbindən süzülüb gələn səmimi duyğular olduğunu diqqətə çatdırmaq üçün oxuculara təqdim etmək yerinə düşər: *"Çağdaş Azərbaycan ədəbiyyatşünaslığında, ümumən ədəbi mühitdə və elmi-ictimai mediada "Kredo"su ilə özünə möhkəm yer eləmiş Əli Rza Xələfll dövrümüzün görkəmli nasiri, şairi və jurnalisti kimi çox yaxşı tanınan və sevilən şəxsiyyətdir. Şübhəsiz, Əlirza müəllimin bir yazar kimi dəsti-xətti lap sonsuzluqdan belə oxucusunu çağırır. Manevrli publisistikası şirinliyi, duzluluğu, fərqliliyi ilə ədəbiyyatımızın içində bütövləşmiş bir heykəl kimidir. Onun yazılarında da, adi söhbətlərində də cəmiyyətlə təbiətin qırılmaz ülvi bağlılığı, vəhdəti apaydın süd kimi görünür. Alovlu çıxışlarını dinlədikcə, sanki sehirli nağıllar aləmində itib-batırsan. Ədəbiyyat tariximizin, o cümlədən folklorumuzun gözəl bilicilərindən olan Ə.Xələflinin yazılarında bir elat dünyası yaşayır. O, bu dünyadan ana təbiətin füsunkarlığını seyr edir, onu sözə gətirir, elmi istiqamət verir, ictimailəşdirir. Onun Söz gücü Təbiətin ilahi eşqini ürəklərə daşıyır. Bunu bayatılarında daha aydın hiss etmək olur. Təbiətə sevgi ona qayğıkeş münasibətdən başlayır. Bu cür münasibətin yeniyetmə və gənclər arasında yaradılmasının gələcək nəslin ekoloji mühitinin sağlamlaşdırılmasında həyati vacib məsələ kimi mühüm əhəmiyyəti vardır. Bədii detallardan məqsədli və elmi şəkildə istifadə səmərə verə bilər".* Əlbəttə, Yusif Dirili təbiəti doğru olaraq canlı varlıq kimi təsəvvür edir.

*(Davamı 11-ci səhifədə)*

# TƏBİƏTİ SEVƏ-SEVƏ

## *Yusif Dirilinin "Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlər" monoqrafiyasına rəy - düşüncələr*

**(Əvvəli 10-cu səhifədə)**

Bu canlı varlığın poeziyanın ən oynaq janrında, yəni bayatılarda necə nəfəs aldığını, insanın təbiətinə necə nüfuz etdiyini göstərmək üçün çox sərrast mətn nümunələrindən istifadə edir. Zənnimcə, müəllifin sözə münasibətini və bu münasibətin təbiətlə nə dərəcədə bağlı olduğunu anlamaq üçün qeydlərinə müraciət etməliyik: *"Ədəbiyyat tariximizdə klassiklərimiz yaşadıqları dövrün ağrılı məqamlarını necə əks etdiriblərsə, bu gün də həmin tendensiya Ə.Xələfli və başqa yazarlarımızın timsalında davam etməkdədir. Müəllifin yurd həsrətinə, ocaq nisgilinə, illərin ayrılığına qan ağlayan, inləyən, sızlayan bayatılarından nümunələr buna misaldır:*

*Şuşa yolu car olar,*
*Yazda sular car olar.*
*Yurdu talan olanın,*
*Sözü dildə car olar (3, s.138).*

*El dağıldı yurdundan,*
*Dərdlərim tel-tel oldu (8, s. 97).*

*Hürgüc üstündə navar,*
*Yığmağa barxana var?*
*Eldən qara daş qalıb*
*Quru yurdda tay nə var? (4, s. 53).*

*Yağı tutdu Canyurdu,*
*Kəkliyi uçan yurdu.*
*Qəfil zaval yeridi,*
*Aldı duman, çən yurdu (4, 51)".*

Zənnimcə, tədqiqatçı Yusif Dirili Xələflinin bayatılarına nüfuz edərkən yer-yurd adlarını təsadüfi xatırlatmır. Axı, erməni vandalları doğma torpaqlarımızı işğal edəndən sonra nəinki təbiətə qəsd edib, hətta yerin, yurdun adlarını da dəyişdirməklə qətliama məruz qoyub. Birmənalı şəkildə demək lazımdır ki, tədqiqatçı şairin işğala münasibətini bütün aydınlığı ilə dərk edir. Özü də obrazlı ifadələrlə verilmiş mənaları sözün bütün qatları ilə duyur, təqdimatı ilə duyduqlarını oxucularına da çatdırır. Şübhəsiz, burada müəllifin diqqətini cəlb edən bir məqam da var. Şair xalq deyimlərindən çox ustalıqla istifadə edir. Qəfil gələn bəlaya xalq arasında "zavala gəldi" deyərlər. Bundan sonra zavalın nəticəsini şair "Aldı duman, çən yurdu" ifadəsi ilə oxucuya çatdırır. "Duman", "çən" anlayışları yolu örtən, yolu gizləyən, həqiqətləri aşkarlamağa imkan verməyən vasitə kimi təsvir olunur. Halbuki duman da, çən də təbiətin öz gözəlliyinə xidmət edir. Deməli, şairin bayatıda təqdim etdiyi "duman", "çən" obrazları özünün həqiqi mənasında deyil, düşmən, yağı mənasındadır. Müəllif bundan sonra təqdim etdiyi bayatılarda da sözün alt qatlarına ustalıqla varır. Təbiət-insan münasibətlərinə aydınlıq gətirməyə çalışır. Neyləyək ki, hayların həm insanlığa, həm də təbiətə qarşı onların qəddar münasibətini Azərbaycan təbiəti hələ uzun müddət ağır yaralar kimi öz sinəsində saxlayacaq. Bu məsələləri aydınlaşdırdığına görə mən Yusif Dirilinin tədqiqatını xüsusilə dəyərləndirirəm. O, fikirlərinə davam edərək yazır:

*"Sızlar gördüm Göyyurdu,*
*Hay-haraylı köy yurdu.*
*Yağı tapdaq elədi,*
*Diri döşü, göy yurdu (4, s.52).*

*Dağ babam - Gordu baba,*
*Xaraba yurdu baba (4, s.50).*

*Yurd yandı, yuva yandı,*
*Sar güllər, laçın ağlar (8, s.101).*

*Hər kəlməsi, hər deyimi bir can, ruh yanğısı olan bu bayatılarda yalnız insanın ayrılıq dərdi deyil, dağın-daşın da nisgili var, harayı var:*

*Dirinin başı duman,*
*Tutdu hər daşı duman.*
*Bir özgə simsarı yox,*
*Oldu sirdaşı duman (4, s.155).*

*Çərşənbə-Novruz öncəsi Boz ay başlar-başlamaz Diri dağının təpəsini dümağ-xoşhal duman bürüyər, sanki ilin barlı-bərəkətli olacağını müjdələyərdi. Biz bu hala öyrəşmişdik. Sevirdik o dağları, zirvəsi dumanlı Diri dağını. Qəribəydi ki, ilin iki fəslində - yaz və payız aylarında hər il belə olurdu. Xəzan ayı sadəcə, Dirinin zirvəsində boz-bulanıq duman hərlənir, hərdən də xəzəlliklər narın çiskin yağışla yuyunardı. Bağ-bağça, dağdərə onda daha gözəl görünürdü".* Mən monoqrafiyada bir məsələni də müşahidə etdim; tədqiqatçının Azərbaycan təbiətini yaxşı bilməsini... Onun tədqiqatında təbiətlə bağlı bilgilərinin necə məntiqlə irəli sürdüyü maraqlı məsələləri şərh etməsində uğurunu təmin edir. Onu da deyim ki, Yusif Dirili həm də etnoqrafdır. O, xalqın adət-ənənələrini, xalqı keçmişlə bağlayan və ümumi dünyagörüşdən gələn mifoloji düşüncələri, inancları da qədərincə yaxşı bilir. Onun Novruzla bağlı açıqlamaları istər-istəməz oxucuda xüsusi maraq doğurur. Mənim zənnimcə, tədqiqatçının xalqın mənəvi mühiti ilə bağlı olan düşüncələri oxucuda xüsusi cazibə yaradır. Hər kəs mətnin dərinliklərinə vardıqca poetik vüsətin hansı anlamlara nüfuz etdiyini daha dəqiq görə bilir. Tədqiqatçı yeri gəldikcə klassikaya müraciət edir. Nizamidən, Füzulidən misallar gətirir. Və nəhayət, Ə.Xələflinin bayatılarında göstərilən yerlərlə bağlı tarixi bilgiləri də yada salır. Şah İsmayılın adını dəfələrlə xatırladır, Dirili Qurbaniyə müraciət edir. Əlbəttə, bu yerdə Dirili Qurbaninin "Bənövşə"si istər-istəməz yada düşür.

Tədqiqatın ikinci fəsli "Nəsr əsərlərində ekoloji məsələlər" adlanır. Təbii ki, burada söhbət Xələflinin nəsr əsərlərindən gedir. Məlumdur ki, Ə.R.Xələflinin publisistikası bədii nəsr dili ilə daha çox səsləşir. Ona görə də müəllif tədqiqatda Xələflinin bədii nəsri ilə publisistikasını demək olar ki, eyni müstəvidə araşdırır və maraqlı nəticələrə gəlir.

Əli Rza Xələflinin "Qiyamətdən bir gün əvvəl" adlı maraqlı bir povesti var. Bu povestin bütün hissələri təbiət-insan münasibətləri ilə bağlı qələmə alınıb. Hətta əsərin "Giriş"ində-ki "Sığmazlıq" adlı hekayə-essenin özü belə təbiətə, heyvanlara qəddar münasibətin çox dərin bir acılıqla qələmə alınmasıdır. Həmin povestdə "qürurun qətli" adlanan çox maraqlı bir hissə var. Dağların qüruru kimi obrazlaşdırılan Təkənin qəddarlıqla ovlanması əsərin qəhrəmanında kəskin etiraz doğurur. O, münasibətini özünəxas sarsılmayan məntiqlə ittihama çevirir. Bütün bunlar uzun müddət oxucunun yaddaşından silinmir. Öldürülən Təkə oxucunun gözləri qarşısında dağın qüruru kimi heykələ dönür və yaddan çıxmır: *"Müəllif bu əsərində yalnız yerli və gəlmə ovçuların Azərbaycan təbiətinə vurduqları ziyanı qeyd etmir, həm də mənəviyyat məsələlərinə toxunur. Təkənin öldürülməsi qətl hadisəsi kimi dəyərləndirilir. O, vüqarlı, qürurlu bir canlı kimi təqdim edilir, sanki insanlaşdırılır, bioloji varlıqdan sosial varlığa çevrilir. Gözlərimiz önündə keçmişinə sədaqətli, gələcəyinə nikbin bir insan tipi canlanır. Təbiət ilahiləşdirilir və ona münasibət dəyişir, sevgi yaranır. Bəs təbiət necə qorunmalıdır ki? Onu Turan Türksoy kimi Vətən fədailəri, təbiət sevdalıları mühafizə edə bilər. Fikrimcə, ətraf mühitə münasibətdə Ə.Xələflinin yazıçı kimi böyüklüyü ondadır ki, təbiətdəki möhtəşəmliyin, qürurun obrazını yarada bilib. Bədii sənətdə yaradıcılığa təbiət qədər təsir edə bilən ikinci bir qüvvə tapmaq çətindir. Təbiət dedikdə isə gözlərimizin qarşısında birinci növbədə gözəl görünüşü və səfalı təmiz havası ilə xoş təsir bağışlayan yaşıl aləm - müxtəlif növ bitkilər, əsl həyat canlanır. Bəlkə bu ona görədir ki, onların insan ömründə həm iqtisadi, həm estetik, həm də sağlamlıq baxımından faydası daha çoxdur. Deməli olar ki, Ə.Xələflinin yaratdığı bütün bədii sənət əsərlərində mütləq təbiətin izini görərsən. Sənət adamının peşəkarlığı və ruhani xarakteri birbaşa bu məsələdə ona dəstəkdir".* Göründüyü kimi, bu lövhədə əsərin qəhrəmanı Turan Türksoyun mənəvi mühiti də qədərincə qabarıqlığı ilə görünür. Biz onun təbiət sevgisini, insan-təbiət məsələsində birbaşa təbiətin tərəfində dura bilmək gücünü müşahidə edirik. Hətta müəlif qeyd edir ki, yazıçının böyüklüyü orasındadır ki, təbiətin möhtəşəmliyini, qürurun obrazını həcm baxımından məhdud bir səhnədə mükəmməlliyi ilə yarada bilib. Əlbəttə, müəllifin bu düşüncələri və mövqeyi ilə razılaşmamaq mümkün deyil. Hətta burada bir maraqlı məqam da var. Biz tədqiqatçıların qeydlərində yazıçının ruhi-mənəvi mühitindəki təbiət obrazını bir bitkiyə olan münasibətindən də görə bilirik. Müəllif yazıçının yovşan obrazına müraciətində onun təbiət sevgisinin nə qədər dərinliklərdən, etnik düşüncədən gəldiyinə diqqəti yönəldir.

Tədqiqatçı, yeri gəldikcə, monoqrafiyanın ayrı-ayrı məqamlarında da türkün tarixi düşüncəsinə müraciət edir. Bu yöndə onun "at-insan" münasibətləri ilə bağlı qeydləri də xüsusi maraq doğurur. Bir sözlə, yovşanı türkün ruhu ilə bağlamaq baxımından (axı yovşan atın yemidir) tədqiqatçının müşahidələri çox qiymətlidir. Araşdırmaçı yazır: *"Yazıçının qeydlərindən: "Nə sirdir, deyə bilmərəm, yazın burnu dəlinən kimi Qurd qapısının aşırımında, Qasım çapdıran bələnində öz kökünün üstündə ağavış tellərinən göyərən yovşan kollarını gözüm gəzir. Beləcə bütün yay boyu evdən işə gələndə, işdən evə qayıdanda bu yovşan kolları gözlərimin qonağı olur. İldə bir-iki dəfə maşında tək olanda düşüb özüm bu yovşan kollarının qonağı oluram. Bir-iki kolunu da dartıb qoparıram, ovcumda sıxıram. Tünd iyisini ciyərlərimə çəkirəm..." Hər mühitin öz rəngi, öz ətri, öz dadı var. Bu keyfiyyətlər onun yetişdirdiyi məhsullarda, insanlarının xarakterində üzə çıxır. Bəzən bizə adi görünən bir yerin otu başqa bir yerin ətirli, al-əlvan çiçəkli bitkisindən daha xoş gəlir. "Dədə Qorqud" filmində Beyrək Banıçiçəyə üzük əvəzi yovşan qoparıb verir və aramızda nişan olsun, iyləyib məni xatırlayarsan deyir. Müəllifin yovşanı Vətən otu kimi təqdim etməsi maraqlıdır".* Məlumdur ki, burada məşhur əfsanədən də bəhrələnmə var. Yovşan sanki yaddaş iksiri kimi təsvir olunur. Yovşanın kəskin qoxusu insanın yatmış duyğularını oyatmaq gücünə malikdir. Əgər hər hansı bir insan uşaq vaxtı yovşanı görübsə, onun qoxusunu duyubsa, demək, yovşanı qətiyyən unuda bilməz. Bu mənada, yovşan həm də vətənin təyinedicisi rolundadır. Yovşan qoxusunu alan hər hansı bir şəxs qarşısıalınmaz bir istəklə vətənə can atmaq istəyər.






**(Davamı 14-cü səhifədə)**

# TƏBİƏTİ SEVƏ-SEVƏ

***Yusif Dirilinin "Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlər" monoqrafiyasına rəy - düşüncələr***

***(Əvvəli 11-ci səhifədə)***

Görünür, bu məsələləri Yusif Dirili də yaxşı bildiyi üçün tədqiqatında yazıçının yovşanla bağlı düşüncələrinə xüsusi yer ayırır: "*Ə.R.Xələfli yovşana insanı Vətənə bağlayan sehrli qüvvə kimi baxır və inandırıcı misallar gətirir. Ölkəsinin bir qolu-zorlusundan küsüb Yurdundan perik düşmüş Loğman tinətli bir müdrik onu geri qaytarmaq üçün ardınca gedən çobanın gətirdiyi bir qom yovşanın iyisini ciyərlərinə çəkib, Vətən üçün darıxır. Doğma yurdu, torpağı, vətəni üçün ürəyinin başı göynəyir. Qayıdıb gəlir. Sitat: Çoban özü ilə gətirdiyi yovşanı ona verib deyir ki, al, özündə saxla. Heç olmasa, arada Vətəni yadına salar. Müdrik yovşanı alan kimi ətri onu vurur. Az qala bihuş olur. Sinəsinə sıxır, iyləyir, bir neçə dəfə bunu təkrar edir. Gözlərindən yaş sel kimi axır. Çoban durub yola düşəndə ona yalvarır ki, məni də özünlə apar... - Hə, bax bu yovşanda belə güc var." (6, s.152-153). Məntiqlə yanaşsaq, bu, təkcə yovşan otunun gücü deyil. Ümumilikdə, yaşıl aləmin - təbiətin gücüdür. Təzə yurd yeri bələdləyəndə ilk olaraq orda ağac əkirik, göy-göyərti əkirik. Yaşıl rəng, yaşıl bitki həyat nişanəsidir. Dincəlməkdir, rahatlıqdır, xoşbəxt yaşamaq, sağlıqlı uzun ömür sürməkdir. Yazıçının adi yovşana bu dərəcədə dəyər verməsinin səbəbi bizə görə onun təbiət rəmzi, yaşarılıq rəmzi olması ilə bağlıdır....*". Beləliklə, biz tədqiqatın ayrı-ayrı səhifələrini çevirdikcə yazıçının təbiət-insan münasibətləri ilə bağlı düşüncəsinin ən dəyərli səhifələri ilə tanış oluruq.

Daha bir fəsli də xüsusi diqqət tələb edir: "Ədəbi düşüncələrdə ətraf mühit və ekoloji problemlər". Məlumdur ki, Ə.R.Xələfli zəngin publisistika yaradıcılığı ilə, ən başlıcası, müasir ədəbiyyatımızla bağlı qələmə aldığı ədəbi düşüncələrində də təbiət-insan münasibətlərinə xüsusi diqqət yetirir. Ayrı-ayrı sənətkarların yaradıcılığına nüfuz edərkən təbiət amilini diqqətindən kənarda qoymur. Bədii faktda təbiət necə görünürsə, onu qədərincə təhlilə cəlb edir və oxucuya çatdırır. Bu da müasir oxucuda təbiətə sevgi münasibətinin aşılanmasında çox əhəmiyyətlidir.

"Xələflinin yaradıcılığında ekoloji mahiyyətli fikirlər", "Yaddaş yanğısı"nda insan ekologiyası problemi" kimi fəsillər də çox maraqla oxunur. Hətta bu yerdə müəllifin Xələfli yaradıcılığından çox uğurlu bir poetik örnəyi təqdim etməsi də yerinə düşür.

*Allahım, hardaydı hökmün, kəsərin,*
*Yağı bu yurdları viran qoyanda?*
*Bəs hara baxırdı sənin gözlərin,*
*Xainlər baş kəsib, gözlər oyanda?*

*Allahım, səninlə haqq-hesabım var,*
*Çağır öz yanına imtahan verim.*
*Şahidim, sübutum xarabalıqlar,*
*İttiham evidir bu edam yerim.*

*İllər sıralandı, ötdü qərinə,*
*Zülmətlər içində keçdi sabahım,*
*Allahım, girmirəm sənin yerinə,*
*Axı səni tutar amanım, ahım.*

Şeir həcmcə kifayət qədər böyükdür. Amma Allaha müraciətlə şairin otuz il ərzində erməni vandallarının sözün həqiqi mənasında yerə, yurda, torpağa Allahsız münasibətinin çox kəskin təsviri ilə qarşılaşırıq. Tədqiqatda Ə.R.Xələfli yaradıcılığının çox uğurlu səhifələrindən məharətlə istifadə olunub. "Xəzanda yaz gülləri" əsərində "ətraf mühit və mənəviyyatın ekologiyası" məsələsi qoyulur. Biz müasir insanın təkcə cəmiyyətə yox, həm də flora və faunaya münasibətinin bu əsərdə yüksək poetik əhvalla təsvirinin şahidi oluruq.

Aydın məsələdir ki, Ə.R.Xələflinin yaradıcılığında "Od" romanı xüsusi yer tutur. Bu əsərdə insan və təbiət münasibətlərinin ilkinliyindən bəri dəyişilmələr çox real cizgilərlə verilib. Sanki bu əsərdə təlqin olunur ki, insan təbiətin övladı olduğunu gərək unutmasın. Tədqiqatçı məhz yazıçının bu mövqeyini xüsusilə təqdir edir.

Monoqrafiyada müəllifin "Son söz"ü də maraqla oxunur.

Nəhayət, tədqiqatın gəldiyi qənaətlər "Nəticə"də tezislər şəklində göstərilir. Müəllif geniş ədəbiyyat mənbələrindən qaynaqlanıb.

Kitabda tədqiqatçı Ə.R.Xələflinin yaşam yoluna da diqqət yetirir, onun əsərlərinin siyahısını verir, haqqında yazılan monoqrafiyaların sırasını da xronoloji ardıcıllıqla təqdim edir.

***21.10.2024***